*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 16 sentyabr 2017-ci il № 69 (2186) Qiyməti 25 qəpik


## Döyüş əmri gözləyirik!



*Mən əsgərəm. Belə bir ordunun əsgəri olmağımla mən də qürurlanıram. Mən də bilirəm ki, Vətən bir millətin yaşadığı ərazi, insanın fərd kimi formalaşdığı torpaqdır. Deməli, torpağı göz bəbəyi kimi qorumalıyıq. Havasını udduğumuz, suyunu içdiyimiz Vətənə layiqli vətəndaş olmalıyıq, Vətənə, dövlətə sədaqətlə xidmət etməliyik. Bu, hər birimizin borcudur. Bizdən əvvəl xidmət edən əsgərlər də belə düşünüb, bizdən sonra xidmət edəcək əsgərlər də belə düşünəcək.*

Vətən böyüyüb boya-başa çatdığımız torpaqdı.

Hər birimiz dərk edirik ki, bir mahnıda deyildiyi kimi, övlad üçün müqəddəs olan iki varlıq var: ana və Vətən. Ona görə də Vətənə Ana Vətən deyirik, Vətəni ana kimi sevirik. Bir dəfə "Azərbaycan Ordusu" qəzetində bir məqalə oxumuşdum. Həmin məqalədə bir fikir könlümə çox yatmışdı: torpağı Vətənləşdirmək...

Biz Vətən sevgisiylə yaşayırıq, xidmət edirik. Ali Baş Komandan əmr verərsə, döyüşəcəyik, qələbə qazanacağıq. Ümummilli liderimiz Heydər Əliyevin bir kəlamı hər bir əsgərin xidmət amalıdır: "Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir". Bu tapşırığa əməl etmək üçün hər birimiz döyüş və mənəvi-psixoloji hazırlığımızı daha da artırır, komandirlərimizin əmr və tapşırıqlarını məsuliyyətlə yerinə yetiririk. Cəbhə bölgəsində xidmət edən hər bir əsgər belə xidmət edir. Mən də onların sırasında.

Vətən sevgisi ən ali, ən uca sevgidi. Bu sevgi müqəddəs sevgidi. Bu sevgi ona görə qüdrətlidir ki, belə sevgi ilə yaşayanlar Vətən naminə şəhid olmağa hazırdır. Biz əsgərlər şəhidlərimizin amalının davamçılarıyıq. Onlar ərazi bütövlüyümüzün bərpa edilməsi naminə şəhid oldular. Biz də döyüşə hər an hazırıq. Ötən ilin aprelində qələbə qazananların davamçıları kimi Böyük Qələbəni qazanacağıq!

Yeniyetmələrə, çağırışçılara müraciət edirəm: siz bizim işğaldan azad edəcəyimiz torpaqlarda xidmət edəcəksiniz. Özünüzü hərbi xidmətə kökləyin. Siz də Azərbaycan Ordusunun əsgəri olmağınızla fəxr edəcəksiniz. Bizlər kimi!..

Vətəni sevirik, sevirsiniz, sevəcəklər!..

**Əsgər**
**Şahin NURİYEV,**
**"N" hərbi hissəsi**

## Müdafiə naziri İsraildə bir sıra idarə və müəssisələrdə olub

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, İsrailə rəsmi səfəri çərçivəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti İsrail Silahlı Qüvvələrinin Komanda və İdarəetmə Mərkəzində olub.

Qurumun strukturu və fəaliyyəti ilə tanış olan Müdafiə nazirinə bildirilib ki, Mərkəzin əsas məqsədi qoşunların təşkili, idarə olunması, onlara nəzarət və digər tapşırıqlardan ibarətdir.

Nümayəndə heyətimiz bu ölkənin müdafiə sənayesinin aparıcı müəssisələrini də ziyarət edib.

Müdafiə sənayesi müəssisələrinin rəhbərləri ilə görüşən general-polkovnik Zakir Həsənov hərbi-texniki əməkdaşlıq sahəsində qarşılıqlı maraq doğuran məsələlər barədə geniş fikir mübadiləsi aparıb və müəssisələrin istehsal etdiyi hərbi təyinatlı məhsullarla tanış olub.

## "Aprel döyüşləri Azərbaycan Ordusunun nəyə qadir olduğunu göstərdi"

"Türkiyə ilə Azərbaycan iki qardaş dövlətdir. Hər iki ölkənin ən böyük problemi Qarabağ məsələsidir".

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral deyib.

Diplomat bildirib ki, Türkiyə Azərbaycanla birlikdə bu problemin ən qısa zamanda qardaş ölkənin ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllini arzulayır: "Problemin qısa zamanda həllini, qaçqın və məcburi köçkünlərin öz dədə-baba torpaqlarına qayıtmasını istəyirik. Hər şeydən önəmli bu problemin sülh yolu ilə həll edilməsidir. Müzakirələrin nəticə verməsi üçün hər kəs məsuliyyətini dərk etməlidir. Ötən il baş verən aprel döyüşləri Azərbaycan Ordusunun nəyə qadir olduğunu göstərdi. Hər kəs bunu gördü. Buna görə də lazım gələrsə, münaqişənin həllində format dəyişikliyinə gedib, diplomatik çalışmaların nəticə verməsi üçün əmək sərf edilməlidir".

# Müdafiə Nazirliyində psixoloq mütəxəssislərlə görüş keçirilib



Sentyabrın 15-də Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsində psixoloji sahədə çalışan mütəxəssislərlə görüş olub. Tədbirdə Müdafiə Nazirliyinin nümayəndələri, xüsusi təyinatlı təhsil müəssisələrinin rəhbər heyəti iştirak edib.

Milli Məclisin üzvü, psixologiya elmləri doktoru, professor Səməd Seyidov çıxış edərək son illər Azərbaycanın hərbi qüdrətinin artırılması istiqamətində dövlətin və ordu rəhbərliyinin həyata keçirdiyi mühüm tədbirlərdən fərəhlə danışıb və ordu quruculuğunda qazanılmış uğurların cəmiyyətimizdə yüksək əhval-ruhiyyə yaratdığını bildirib. Azərbaycan Ordusunun ötən ilin aprelində cəbhə xəttində qazandığı qələbənin əhəmiyyətindən danışan alimə görə, bu hadisə bütün dünyada əks-səda doğurmaqla xalqımızın ordu ilə sarsılmaz birliyini və hərbi qulluqçularımızın qələbə əzmini sübuta yetirdi.

Professor müasir ordularda şəxsi heyətin psixoloji hazırlığının yüksəldilməsi sahəsində əldə edilmiş nailiyyətlərdən söhbət açıb, ordunun döyüş qabiliyyətinin artırılmasında psixoloji təminatın rolunu dəyərləndirib. O, tədbir iştirakçıları ilə fikir və mülahizələrini bölüşərək Azərbaycan Silahlı Qüvvələrində kursant və əsgər heyətinin psixoloji hazırlığının müasir tələblər səviyyəsində qurulması üçün əlindən gələn köməyi əsirgəməyəcəyini bildirib.



Müdafiə nazirinin şəxsi heyət üzrə müavini, Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev maraqlı diskussiya və fikir mübadiləsi şəraitində keçən görüşə görə qonaqlara minnətdarlığını bildirərək belə tədbirlərin vacibliyini və davamlı keçiriləcəyini qeyd edib.

**"Azərbaycan Ordusu"**

# "TurAz Qartalı-2017" təlimlərində iştirak edəcək Türkiyə aviasiyasının növbəti qrupu Azərbaycana gəlib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında illik hərbi əməkdaşlıq planına əsasən, iki ölkənin Hərbi Hava Qüvvələrinin iştirakı ilə "TurAz Qartalı-2017" birgə taktiki-uçuş təlimləri keçiriləcək.

Təlimlərdə hər iki ölkənin Hərbi Hava Qüvvələrinin müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət, döyüş uzlaşması imkanlarının öyrənilməsi, axtarış-xilasetmə tədbirlərinin icrası, havadan zərbələr endirməklə yer hədəflərinin məhv edilməsi və digər tapşırıqlar yerinə yetiriləcək.

* * *

"TurAz Qartalı-2017" birgə təlimlərində iştirak etmək üçün Türkiyə Hərbi Hava Qüvvələrinin geniş tərkibdə uçuş və mühəndis-texniki heyəti ölkəmizə gəlib.



Təlimlərə hazırlıq məqsədilə hazırda heyətlərin yerləşdirilməsi, təlimin planlaşdırılması və digər təşkilati məsələlərlə əlaqədar müvafiq tədbirlər həyata keçirilir.

* * *

"TurAz Qartalı-2017" birgə təlimlərində iştirak etmək üçün Türkiyə hərbi aviasiyasının növbəti qrupu Azərbaycana gəlib.

Sentyabrın 18-dən 30-dək ölkəmizdə keçiriləcək təlimlərdə Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus MiQ-29, F-16, Su-25, C-130 Herkules, CASA CN-235 təyyarələri və Mi-35, Mi-17, Sikorski S-70 helikopterlərindən ibarət 30-dək aviasiya vasitəsi iştirak edəcək.

Aviasiya vasitələrinin gəlişi davam edir.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*15 sentyabr 2017-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və 60 millimetrlik minaatanlardan da (1 mərmi) istifadə etməklə sutka ərzində atəşkəs rejimini 122 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Şavarşavan kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Fərəhli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari, Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Koxanəbi, Əsrik Cırdaxan, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Silahlı Qüvvələrimizin mövqeləri Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Şirvanlı, Sarıcalı, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də atəşə tutulub.

*Gənc zabitlərimiz*

# "Vətənin şərəfini uca tutmaq övladlıq borcumuzdu..."

Ön xətdə düşmənlə üzbəüz mövqelərdə dayanan Vətən keşikçiləri ilə görüşəndə bölmədə tanış olduğum əsgər və zabitlər məndə olduqca xoş təəssüratlar yaratdı. Döyüşçülərin simasında sezilən əzmkarlıq, yüksək əhval-ruhiyyə könül oxşayırdı. "Birimiz hamımız, hamımız birimiz üçün" deyimi sanki bu qorxmaz əsgərlər üçün deyilib. Onlar Vətənimiz Azərbaycana sədaqətlə xidmət edir, düşmənlə üzbəüz mövqelərimizdə ayıq-sayıq dayanır, təlimlər zamanı döyüş vərdişlərini artırırlar. Hər bir əsgər, zabit, gizir yaxşı bilir ki, onların başlıca vəzifəsi düşmənin təxribatının qarşısını almaq, atəşkəsi pozduğu an cavablarını layiqincə verməyə hazır olmaqdır.

Belə hərbçilərimizdən biri -



baş leytenant Turab Kərimov şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh olan zabitlərdəndir. Əslən Şabran rayonundan olan Turab orta məktəbdə qəhrəmanlarımız, cəsur döyüşçülərimiz haqqında oxuyub öyrənib, ermənilərin dinc əhaliyə etdiyi işgəncələrdən agah olub. Şəhidlərimizin son damla qanına qədər vuruşduğu Vətəni qorumağı özünə borc bilib.

Valideynlərinin xeyir-duası ilə 2005-ci ildə C.Naxçıvanski adına Hərbi Liseyə daxil olur. İlkin hərbi təhsilini 2008-ci ildə layiqincə başa vurandan sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. Burada da dərslərinə diqqətlə yanaşır, nizam-intizamı və hərb sənətinə marağı ilə hər kəsin rəğbətini qazanır. 2012-ci ildə ilk hərbi rütbə alan gənc zabit ön xətdə xidmətə başlayır.

Bir neçə ildir ki, ön mövqelərdə doğma Azərbaycanımızın keşiyində cəsarətlə dayanır. Əsgərləri Vüqar Zahirov, Murad Nəsirli, Röyal İsmayılov, Niyyətşah Cəbrayılov, Fərrux Rüstəmov, Vüsal Səfiyev, Mahir Hüseynov ilə birlikdə düşmənlə üz-üzə mövqelərimizi qoruyur.

- Burada davamlı döyüş növbətçiliyi aparırıq, - baş leytenant Turab Kərimov deyir. - Döyüşçülərimizlə mütəmadi olaraq təlimlər keçirik, hazırlığımızı daha da artırırıq. Hər an Ali Baş Komandanın əmri ilə torpaqlarımızın azadlığı uğrunda döyüşməyə hazırıq.

Turab bu yolu seçdiyini və onlara layiqli övlad olacağını deyir:

- Ön xətdə xidmət edərək həm Vətənin, həm də ailənin qədrini yaxşı bilirik. Həm məsuliyyətli, həm də bacarıqlı olmağın önəmini anlayırıq. Bizimlə üz-üzə düşmən varsa, Ali Baş Komandanın əmri ilə irəli atılmağa hazırıq. Qarabağımızı, torpaqlarımızı azad etmək, Vətənin şərəfini uca tutmaq övladlıq borcumuzdu...

**Baş leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu"**

# Acıdərə Türk Şəhidliyinə "Hər gələn bir bardaq su ilə gəlsin" devizi altında yürüş keçirilib

*Bakının erməni-bolşevik işğalından və daşnak quldurlarından azad edilməsinin 99-cu ildönümü ilə bağlı Silahlı Qüvvələrin birlik, birləşmə, hərbi hissə və təhsil müəssisələrində silsilə tədbirlər həyata keçirilir.*



Respublikamızın ərazisindəki Türk Şəhidlikləri ziyarət olunur, Osmanlı Türkiyəsi Qafqaz İslam Ordusunun Azərbaycan Demokratik Respublikasının yeni yaranmaqda olan milli ordu hissələri ilə birlikdə Bakı və ətraf rayonları erməni-bolşevik işğalından azad etmələri tariximizin şanlı səhifələrindən biri kimi xatırlanır, Türkiyə və Azərbaycanın - sevinci və kədəri bir olan "bir millət, iki dövlət"in tarixi dostluq və qardaşlığının bu gün daha da möhkəmləndiyi qeyd edilir.

Müdafiə Nazirliyi rəsmilərinin, Türkiyə Silahlı Qüvvələrinin Azərbaycanda akkreditə olunmuş hərbi attaşelik aparatı əməkdaşlarının, hərbi qulluqçuların, müharibə veteranlarının və ictimaiyyət nümayəndələrinin Bakı-Şamaxı yolunda, Qobustan rayonu ərazisindəki Acıdərə Türk Şəhidliyinə yürüşü ötən əsrin əvvəllərində xilaskarlıq missiyası ilə Azərbaycana gələn və erməni-bolşevik qoşunları ilə qanlı döyüşlərdə şəhid olan "mehmetciyin" xatirəsinə əbədi ehtiramın nümayişinə çevrilib.

"Hər gələn bir bardaq su ilə gəlsin" vətənpərvərlik aksiyasının iştirakçıları əvvəlcə Türk Şəhidliyi abidə-kompleksini ziyarət edərək önünə çələng və qırmızı qərənfillər qoyublar. Tənha türk şəhidinin məzarı qarşısında keçirilən xatirə mitinqini açan Müdafiə Nazirliyinin zabiti Abdulla Qurbani Göyçay, Kürdəmir, Ağsu, Şamaxı, eləcə də Bakının daşnak quldurlarından azad edilməsi uğrunda gedən döyüşlər haqqında ətraflı məlumat verib. Qeyd edilib ki, bu döyüşlərdə Qafqaz İslam Ordusunun yüzlərlə əsgər və zabiti şəhidlik zirvəsinə ucalıb. Bununla yanaşı, həmin dövrdə havaların son dərəcə isti keçməsi, quraqlığın hökm sürməsi, hətta çayların, bulaqların suyunun quruduğu vaxtlarda neçə-neçə döyüşçü susuzluqdan can verib. Şəhidlərin ruhları şad, yerləri sərin olsun deyə anım mərasiminə gələn hər kəs qanla suvarılmış Acıdərəyə bir bardaq su ilə gəlib.

Şəhidlərin xatirəsinə əbədi ehtiram əlaməti olaraq əsgərlər öz su qablarını çıxararaq tənha türk şəhid qəbrinə və vaxtilə qanlar tökülmüş əraziyə su çiləyib, bir an içində bütün aksiya iştirakçıları da onlara qoşulub.

Türkiyənin ölkəmizdəki hərbi attaşesi briqada generalı Zafer Ocak bu ehtirama görə Azərbaycan Prezidentinə, Müdafiə Nazirliyinin rəhbərliyinə və tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

Hərbi hissələrdən birində keçirilən "Bakının erməni-bolşevik işğalından azad edilməsi Azərbaycan-Türkiyə qardaşlığının qələbəsidir" adlı tədbirdə şəhidlərin xatirəsi sayğı duruşu ilə yad edilib.

Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani "Bakının erməni-bolşevik işğalından azad edilməsi XX əsr tariximizin şanlı səhifəsidir", Silahlı Qüvvələrin Hərbi Akademiyasının dosenti, tarix elmləri doktoru Mehman Süleymanov "Qafqaz İslam Ordusunun Azərbaycana xilaskarlıq yürüşü" mövzularında çıxış ediblər.



Bildirilib ki, görkəmli türk sərkərdəsi Nuru paşanın komandanlığı ilə Bakının erməni-bolşevik işğalından azad edildiyi şərəfli tarixi günlərdən 99 il ötsə də Azərbaycan xalqı xilaskarlıq missiyası ilə Azərbaycana gəlmiş şanlı türk əsgərinin qardaşlıq köməyini heç vaxt unutmur. Xalqımız yaxşı bilir ki, məhz Qafqaz İslam Ordusunun sayəsində Bakımız bolşevik-daşnak rejimindən sonra hakimiyyəti ələ keçirmiş menşevik-daşnak quldurlarından - "Sentrokaspi diktaturası"ndan təmizlənmiş, iki gün sonra isə Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti Gəncədən Bakıya köçürülərək Bakı paytaxt elan edilmiş, Şərqin ilk demokratik dövləti olan AXC-nin qurulması və sonrakı mövcudluğunda tariximizin bu şanlı səhifəsi - Bakının işğaldan azad edilməsi mühüm rol oynamışdır.



Briqada generalı Z.Ocak Çanaqqala zəfərinin qazanılmasında, Türkiyə Cümhuriyyətinin qurulmasında Azərbaycan xalqının unudulmaz xidmətlərini yada salıb, Bakının erməni-bolşeviklərdən azad edilməsində Qafqaz İslam Ordusunun iştirakını bir qardaş köməyi kimi dəyərləndirib. Türkiyə-Azərbaycan hərbi əməkdaşlığının bu gün də uğurla davam etdirildiyini, hər iki ölkənin Hərbi Hava Qüvvələrinin iştirakı ilə artıq "TurAz Qartalı-2017" taktiki təlimlərinin keçiriləcəyini qeyd edərək tədbir iştirakçılarını əlamətdar və tarixi hadisə münasibətilə təbrik edib.

Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev ötən əsrin əvvəllərində nəinki Bakı və onun ətraf rayonlarında, eləcə də respublikamızın bir çox bölgələrində baş verən erməni-daşnak qətliamlarından və bu qətliamların qarşısının alınmasında qardaş Türkiyədən gəlmiş sərkərdələrin, qəhrəman "mehmetcik"lərin igidliklərindən söhbət açıb, Kazım Qarabəkir paşanın Naxçıvan uğrunda xidmətlərindən bəhs edib, sınaqlardan çıxmış Azərbaycan-Türkiyə birliyinin, qardaşlığının xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən daha da möhkəmləndirildiyini və bu gün də möhtərəm Prezidentimiz İlham Əliyevin sayəsində uğurla inkişaf etdirildiyini vurğulayıb.

Nəzərə çatdırılıb ki, Müdafiə Nazirliyi şəxsi heyətin mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun, vətənpərvərlik hissinin daha da yüksəldilməsi məqsədilə hərbi şöhrət tariximizin öyrənilməsinə, təbliğinə xüsusi önəm verir. Bugünkü tədbir də bu istiqamətdə görülən işlərin bariz nümunəsidir.

Tədbirin sonunda vətənpərvərlik mahnılarının və hərbi marşların ifaçısı Şəmistan Əlizamanlının iştirakı ilə "Qafqaz dağı, yol ver bizə!" adlı ədəbi-musiqili kompozisiya və Qafqaz İslam Ordusuna həsr olunmuş videoçarxlar təqdim edilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## "Beynəlxalq birlik Dağlıq Qarabağ probleminin həllində fəallıq nümayiş etdirməlidir"

Bu gün dünyada baş verən ağır iqtisadi, siyasi proseslər fonunda bir sıra problemlərin həlli açarı Azərbaycandadır.

Bu fikri AZƏRTAC-a açıqlamasında Ukrayna Ali Radasının deputatı, AŞPA-nın vitse-prezidenti Georgi Loqvinski deyib. O bildirib ki, Azərbaycan region və dünya dövlətləri üçün çox uğurlu iqtisadi, mədəni layihələr həyata keçirir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq birliyin ədalətli mövqe nümayiş etdirməməsinə dair sualı cavablandıran AŞPA-nın vitse-prezidenti vurğulayıb ki, beynəlxalq təşkilatlar hansı tərəfin işğalçı və hansı tərəfin işğala məruz qalmasını konkret göstərməlidirlər.

"Ümumiyyətlə, "dondurulmuş münaqişə" terminindən xoşum gəlmir. Hesab edirəm ki, beynəlxalq birlik Dağlıq Qarabağ probleminin həllində fəallıq nümayiş etdirməlidir", - deyə Loqvinski qeyd edib.

## Erməni deputat ölkəsinin Müdafiə Nazirliyinin rəsmilərini ifşa edib

*Ermənistan ordusu ancaq xarici havadarlarının hesabına döyüş qabiliyyətinə malikdir.*

AZƏRTAC xəbər verir ki, bunu Ermənistanda fəaliyyət göstərən "Tsarukyan" blokunun üzvü, deputat Napoleon Əzizyan news.am saytının müxbiri ilə söhbətində bildirib. Bununla da ermənistanlı deputat ötən il aprel döyüşlərindən sonra Ermənistanın, o cümlədən bu ölkənin Müdafiə Nazirliyi rəsmilərinin öz ordularının "gücü, qüdrəti, yüksək peşəkarlığı, döyüş qabiliyyəti" barədə bir-birinin ardınca verdikləri pafoslu, reallığı əks etdirməyən bəyanatlarını ifşa edib.

"Bu gün bizim döyüş qabiliyyətli ordumuz var" fikri sizə nəsə demir? Bu cür məhdud büdcə şəraitində döyüş qabiliyyətli ordumuzun olmasında xarici havadarlar amili əsas rol oynayır", - deyə deputat N.Əzizyan bildirib.

AZƏRBAYCAN ORDUSU

# Hərbi məktəblərdə də yeni dərs ili başlandı

## Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrində andiçmə mərasimləri keçirilib

*Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin həyəti bayramsayağı bəzədilib. Nəzarət-buraxılış məntəqəsinə toplaşan valideynlər övladlarının bu xoş günündə iştirak etmək üçün müxtəlif bölgələrdən gəliblər. Hamının üz-gözündə fərəh, sevinc hiss edilir. Hamı bir fərəhin cazibəsindədi - bu gün gənc kursantların andiçmə mərasimidi.*



Tədbirin əvvəlində ulu öndər Heydər Əliyevin və ölkəmizin azadlığı, suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Gənc kursantlar sıra meydanına nizami addımlarla yaxınlaşaraq, bir əli silahda, bir əli kursant yoldaşında Vətənə sədaqət andı içdilər...

... Gənc kursantlar Hərbi andı qəbul etdikdən sonra, tədbir çıxışlarla davam etdi.



Polkovnik-leytenant Mikayıl Hüseynov çıxışında Silahlı Qüvvələrimizi zabit kadrları ilə təmin edən məktəbin ənənələrindən, kursantların hərbi biliklərə yiyələnməsindən, tədrisin müasir tələblər əsasında təşkil edilməsindən söz açdı. "Bu gün məktəbimizin həyatında əlamətdar bir gündür. Hərbi sahəni özünə ömür yolu seçmiş kursantlar dövlətçiliyimizin sədaqətli müdafiəçiləri olacaqlarına and içdilər. Hər bir şəxs içdiyi andda müstəqil Vətənimizə sonsuz məhəbbətini, düşmənə nifrətini ifadə edir. Ölkəmizdə elmin və təhsilin yüksəlişi, o cümlədən, yüksək peşəkarlığa malik zabit kadrlarının hazırlanması Azərbaycan xalqı qarşısında misilsiz xidmətləri olan ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərimizin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğu ilə bağlı tövsiyələrinə əsaslanaraq bildirmək istəyirəm ki, sizin əsas vəzifəniz məktəbdə yaradılmış müasir şəraitdən, müəllim-professor heyətinin savadından, təcrübəsindən səmərəli istifadə edib peşəkar səviyyəli zabit kimi yetişməkdir".

Gənc kursantlar adından çıxış edən Mirqəfər Cabbarlı bu günün sevincini hamı ilə bölüşərək dedi:

- Bu gündən etibarən biz Azərbaycan Respublikası Silahlı Qüvvələrinə daxil oluruq. Bu, çətin, amma şərəfli yoldur. Bu yolu özümüz seçmişik və bununla fəxr edirik. Vətəni qorumaq hamının müqəddəs borcudur. Bütün gücümüzü və biliyimizi səfərbər edib torpaqlarımızı işğaldan azad edəcəyik. Valideynlərə, xüsusilə analara deyirəm ki, bizi Vətənini sevən və daim Vətəninə sədaqətli olan bir şəxs kimi böyütdünüz. Qələbə bizimdir! Var olsun Vətənimiz! Yaşasın, Azərbaycan və onun Silahlı Qüvvələri!

Valideynlər adından çıxış edən Ariz Ağayev bu günün onun üçün ən qürurverici gün olduğunu, oğlunun dahi rəhbər Heydər Əliyevin adını daşıyan bir təhsil ocağına qəbul olmasından, onu hərbi mundirdə görməyinin sevincindən fərəhlə danışdı.

Sonra kursantlar orkestrın müşayiəti ilə məktəbin marşını ifa etdilər.

Tədbirdən sonra valideynlər övladları ilə görüşür, təəssüratlarını bölüşürlər. Əlini övladının çiyninə qoyub şirin söhbət edən bir valideynə - Zaur Zalova yaxınlaşıb sevincini bizimlə bölüşməyi xahiş etdim:

- Naxçıvandanam. Oğlum Seymurun andiçmə gününə gəlmişəm. Sevincim hədsizdir. Çünki oğlum hərbi işi öyrənəcək, ömrünü ərazi bütövlüyümüzün qorunmasına həsr edəcək. İlk dəfə mənə hərbçi olmaq istədiyini deyəndə çox sevindim. Axı, Ulu Öndərimizin də dediyi kimi, ən şərəfli peşə Vətəni qorumaqdır.

Valideyn Mayis Səmədov Salyan rayonundandır. O da oğlunun ən xoş gününə gəlib. Qürurlandığını sezmək çətin deyildi:

- Oğlum taleyini müqəddəs bir peşəyə bağlayıb. Ona görə də sevincdən ürəyim dağa dönüb, - deyir. - Hələ uşaqlıqdan hərbçi olmaq istədiyini bildirəndə onu bağrıma basıb, fərəhlənirdim. Budur, Fərman kursantdır.

... Tədbir sona çatır. Bütün kursantlar yaxşı bilirlər ki, bir müqəddəs vəzifəmiz var - işğalda olan torpaqlarımızı azad etmək. Bu vəzifəni məhz güclü, savadlı, döyüş təcrübəsinə malik ordu yerinə yetirə bilər. Ordunun özəyi isə savadlı və güclü zabitlərdir.

* * *

Hərbi Tibb Fakültəsi kursantlarının hərbi andiçmə mərasimi keçirildi. Mərasimdə fakültənin müəllim-zabit heyəti, Müdafiə Nazirliyinin, ictimaiyyətin nümayəndələri, kursant valideynləri iştirak etdilər. Tədbirdə əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın bütövlüyü uğrunda şəhid olan həmvətənlərimizin ruhu bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni səsləndirildi.

Sonra Hərbi Tibb Fakültəsinin gənc kursantları Hərbi andı qəbul etdilər.

Tibb xidməti polkovniki Çingiz Əlləzov kursantları təbrik etdi:

- Ali Baş Komandanın, Müdafiə nazirinin orduya göstərdiyi yüksək diqqət və qayğısı nəticəsində bütün hərbi təhsil ocaqlarında olduğu kimi bizim məktəb də yeni tədris ilinə tam hazırdır. Bütün dərs vəsaitləri, müasir avadanlıqlarla təchiz olunmuş sinif otaqlarımız var. Kursantların təlim-tərbiyəsi və hazırlığı peşəkar zabitlərimizə həvalə edilib. Kursantlar məktəbimizdə həkimlik sənəti ilə yanaşı, peşəkar zabit kimi də yetişəcəklər. Əziz kursantlar, hər birinizi bu əlamətdar gün münasibəti ilə təbrik edir, dərslərinizdə uğurlar arzulayıram.



Müdafiə Nazirliyinin zabiti polkovnik-leytenant Azər Əliyev kursantları və onların valideynlərini mühüm və yaddaqalan gün münasibətilə təbrik edərək, bu çətin və şərəfli yolda onlara uğurlar arzuladı.

- İnanıram ki, hər biriniz Nizamnamələrin tələblərinə ciddi əməl edərək, tibbi biliklərə dərindən yiyələnəcəksiniz. Hərbi hissələrdə sizin öhdənizə mühüm vəzifələr düşəcək. Çünkü orduda şəxsi heyətin sağlamlığı sizlərə həvalə edilir. Məktəbdə öyrəndiyiniz biliklərlə bu vəzifənin öhdəsindən laiqincə gələcəyinizə əminəm.

Kursantlar adından çıxış edən Şamxal Nadirov Hərbi andı qəbul etməkdən qürur hissi keçirdiklərini bildirdi. Hərbçi olmağın, həkimliyin məsuliyyətini yaxşı dərk etdiklərini və onlara bəslənən ümidləri doğrultmaq üçün çalışacaqlarını vurğuladı.

- Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu Hərbi Tİbb Fakültəsində bir aylıq ilkin təlim toplanışında olduq. Bu günlər ərzində məktəbin rəhbərliyi, zabit və gizir heyəti tərəfindən diqqət və qayğı gördük, hərbin sirlərinə yiyələndik. Burada bizim üçün hər cür şərait yaradılıb. Vətənimizin müdafiəsində peşə borcumuzu layiqincə yerinə yetirməyə söz veririk.

Valideynlər adından çıxış edən Fəxrəddin Əlirzayev əlamətdar gün münasibətilə kursantları təbrik etdi. Oğlunun timsalında bütün kursantlarla fəxr etdiyini bildirdi. "Bir ata kimi qürur hissi keçirirəm ki, oğlum şərəfli yolun yolçusudur. Vətənin keşiyində həkim kimi dayanmaq ikiqat şərəfdir. İnanıram ki, oğlum və bütün kursantlar Azərbaycan Ordusuna layiqli zabit, savadlı həkim olacaq, öz xidmətləri ilə bizi daim qürurlandıracaqlar".

Tədbir kursantların təntənəli keçidi ilə davam etdi.

Sonda valideynlər və ictimaiyyət nümayəndələri məktəbin sosial-məişət şəraiti ilə tanış oldular.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# "Şərəfini uca tuturuq sənin, ey Vətən!"

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana uyğun olaraq, 15 Sentyabr Bilik Günündə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə bu il qəbul olunmuş kursantların Şərəf andı mərasimi keçirildi. Liseyin bayramsayağı bəzədilmiş həyəti görənlərə xoş ovqat bəxş edirdi. Tədbirə gələn valideynlərin sevinci aşıb daşırdı.*



Mərasim rəsmi ritualların yerinə yetirilməsi ilə başlandı. Hərbi Liseyin rəisi polkovnik Raizi İsmayılov mərasim münasibəti ilə meydanda düzülən şəxsi heyətlə salamlaşdı, zabit və əsgərləri, kursantları Bilik Günü münasibəti ilə təbrik etdi, onlara uğurlar arzuladı.

Tədbir açıq elan edildikdən sonra Hərbi liseyin döyüş bayrağı təntənəli surətdə mərasim meydanına gətirildi. Ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət himni oxundu.

Çıxış etmək üçün söz Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi polkovnik Raizi İsmayılova verildi. O dedi:

- Cənab zabitlər, gizirlər, hörmətli müəllimlər, əziz kursantlar və valideynlər. Sizi 15 Sentyabr Bilik Günü və Şərəf andı günü münasibəti ilə səmimi qəlbdən təbrik edir, hamınıza möhkəm cansağlığı, təhsildə, xidmətinizdə və şəxsi həyatınızda uğurlar arzulayıram. Hərbi liseyə yeni qəbul olunmuş gənc kursantların valideynlərini salamlayır və "gözünüz aydın olsun" - deyirəm. Bu gün sentyabrın 15-dir, Bilik Günüdür. Bugünkü gün həm birinci, həm də ikinci və üçüncü kursun kursantları üçün çox əlamətdardır. Birinci kursun kursantları belə təntənəli mərasimdə birinci dəfədir ki, iştirak edirlər. Hərbi təhsil ocağının tarixindən qısaca söhbət açaraq qeyd edim ki, hərbi təhsil ocağı 1971-ci ildə ulu öndərimiz Heydər Əliyev tərəfindən yaradılıb. Bu məktəb ümummilli liderimiz Heydər Əliyevin milli ordu quruculuğu tarixində yaratmış olduğu ən böyük abidələrdən biridir. Bu günə qədər Hərbi lisey şərəfli bir yol keçib. Silahlı Qüvvələrimiz üçün zabit kadrlarının hazırlanmasında C.Naxçıvanski adına Hərbi Liseyin xüsusi yeri vardır. Bu günə qədər yüzlərlə, minlərlə gənc bu təhsil ocağını bitirərək müxtəlif ali hərbi məktəblərə üz tutmuşlar. Ümummilli liderimiz Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə Hərbi liseyə daim diqqət və qayğı göstərmişdir. O, çıxışlarının birində Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasından söz açaraq demişdir ki, ibtidai hərbi məktəbi açmaqda əsas məqsədimiz keçmiş Sovet ordusunun sıralarında azərbaycanlı zabitlərin çox olmasına nail olmaq idi. Biz hamımız fəxr edir və qürur duyuruq ki, qurucusu və yaradıcısı ulu öndər Heydər Əliyev olmuş hərbi təhsil ocağında xidmət edir və oxuyuruq.

Hərbi liseyin rəisi çıxışında onu da qeyd etdi ki, möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində ordumuz daha da güclənir. Gündən-günə qüdrətini artıran Silahlı Qüvvələrimiz hər an torpaqlarımızı erməni işğalçılarından azad etməyə hazır və qadirdir. Ordumuzun gücünü, döyüş hazırlığının yüksək olmasını 2016-cı il aprel döyüşləri bir daha əyani surətdə göstərdi.

Hərbi liseyin müəllimi Peykər Həbibova, valideyn Fikrət Quliyev və başqaları çıxış edərək Bilik Günü münasibəti ilə kursantlara uğurlar arzuladılar.

Kursantlar adından Əli Əliyev çıxış edərək bildirdi ki, ordu üçün yaxşı zabit, ölkə üçün dəyərli vətəndaş olacaqlar. Hərbi liseyin ənənələrini şərəflə davam etdirəcəklər.

Sonra gənc kursantlar Şərəf andı içdilər. Bu anlarda onların gözündə böyük sevinc var idi. Üzlərindən bəxtəvərlik yağırdı. Kursantlar həyatlarının ən yaddaqalan anlarını yaşayırdılar. Övladlarının xoş gününü valideynlər sevinc hissləri ilə seyr edirdilər.

Hərbi liseyə yenicə qəbul edilmiş birinci kursun kursantları ilə üçüncü kursun kursantlarının müqayisəsi də maraqla qarşılandı.

Mərasim iştirakçılarının "Naxçıvanskilər" marşını ifa etməsi də yaddaqalan oldu. Həm kursantlar, həm də valideynlər xoş anlar yaşadılar.

Tədbirdə xidmətdə və işində fərqlənən bir qrup zabit, gizir, çavuş "Silahlı Qüvvələr Veteranı" və "Qüsursuz xidmətlərə görə" medalı təntənəli surətdə təqdim olundu. Təqaüdə çıxan bir neçə müəllimə qiymətli hədiyyə verildi.

Bilik Gününə həsr olunmuş mərasim şəxsi heyətin təntənəli marşla tribunanın önündən keçməsi ilə başa çatdı.

Sıra meydanı boyunca addımladıqca bir az əvvəl kursantların oxuduqları Şərəf andından bu sözlər hələ də qəlbimdə əks-səda verirdi: "Şərəfini uca tutacağıq sənin, ey Vətən!"

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

## Milli Qəhrəman Albert Aqarunovun qardaşı:

# Biz fəxr edirik ki, Azərbaycan xalqı Alberti unutmur

*Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov İsrail Dövlətinə ilk rəsmi səfəri çərçivəsində Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun ailəsi ilə, qəhrəmanın qardaşı Rantik Aqarunovla görüşüb.*



AZƏRTAC xəbər verir ki, Zakir Həsənov görüşdə çıxış edib. Nazir deyib: "Albert Aqarunov iki qardaş xalqın əsl qəhrəmanıdır, biz onun rəşadətini və igidliyini heç vaxt unutmayacağıq. 1991-ci il oktyabrın 9-da Azərbaycan Milli Ordusu yaradıldı və Albert könüllü olaraq bu orduda xidmət etməyə başladı. Albert Aqarunovun doğma Vətən torpağını necə fədakarcasına və qəhrəmanlıqla qorumasını xatırlayırıq. 1992-ci il mayın 8-də o, Şuşa ətrafında sonuncu döyüşə getdi. Az sonra Aqarunovun heyəti düşmənin ikinci tankını vurdu. Aqarunov mövqeyi dəyişərkən öz tankının düz qabağında həlak olmuş alay yoldaşlarının cəsədlərini gördü. Həmin anda o, nə özü haqqında fikirləşirdi, nə də bu addımın ona necə baha başa gələ biləcəyini düşünürdü. O, yalnız Ermənistan tərəfindən başlanmış müharibənin qurbanları olan belə gənclər və öldürülmüş oğullarının heç olmasa cəsədlərini almaq istəyən analar haqqında fikirləşirdi. Albert həlak olanların yanına qədər qaçaraq onları döyüş meydanından çıxarmağa başladı və elə həmin anda özü erməni snayperinin gülləsinə tuş gəldi. Albert onu öz doğma oğlu kimi böyüdüb boya-başa çatdırmış Azərbaycanı çox sevirdi. 23 yaşlı Albert qısa, lakin şərəfli və igid həyat sürdü. Azərbaycanda onu sevirlər və xatirəsini həmişə ehtiramla yad edirlər. O, əsl qəhrəman, xalqımızın rəşadət nümunəsidir. Biz onun xatirəsini həmişə hörmətlə yad edəcəyik. Şəhidlərimizin qanı yerdə qalmayacaq".

Azərbaycanın Milli Qəhrəmanının qardaşı Rantik Aqarunov Albert Aqarunovun xatirəsinə və onun ailəsinə göstərilən diqqətə görə təşəkkürünü bildirib. Rantik Aqarunov deyib: "Mən hər il Albertin doğum günündə Bakıya gəlirəm və görürəm ki, Azərbaycan xalqı mənim qardaşımı unutmur. O, gənc nəsil üçün qürur obyekti və nümunə kimi qalır. Bu yaxınlarda Bakıda Albertin oxuduğu məktəbdə ona abidə qoyulub. Çox şadam ki, bu gün mənim qardaşım Azərbaycan ilə İsrail arasında dostluq və əməkdaşlıq rəmzlərindən biridir. Biz fəxr edirik ki, Azərbaycan xalqı və Azərbaycan Ordusu Alberti unutmur. 2016-cı ilin aprelində Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları nəticəsində başlanmış qısamüddətli müharibə dövründə biz Azərbaycan üçün çox həyəcan keçirirdik. Biz, əslən Azərbaycandan olanlar Azərbaycanın haqq işini müdafiə etmək üçün batalyon yaradaraq könüllülər kimi orduya getməyə hazır idik, axı mənim qardaşımın məzarı bu ölkənin torpağındadır. Lakin biz Azərbaycan Ordusunun erməni təxribatının qarşısını almaq və öz vətəndaşlarının təhlükəsizliyini təmin etmək məqsədi ilə Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr vurmasının, separatçıları geri çəkilməyə məcbur edərək Azərbaycanın işğal olunmuş torpaqlarının bir hissəsini xilas etməsinin şahidi olduq. Bu gün Azərbaycan Cənubi Qafqazda ən güclü və qüdrətli ordusu olan ölkədir. Bu ordu öz qüdrətini nümayiş etdirmək üçün həqiqət anını gözləyirdi və biz buna görə çox fəxr edirik!"

Görüşün iştirakçısı - İsraildəki "Cəmiyyət üçün beynəlxalq layihələr" adlı qeyri-hökumət təşkilatının rəhbəri, beynəlxalq münasibətlər sahəsində tanınmış ekspert Arye Qut Azərbaycanın Müdafiə nazirinə Albert Aqarunovun ailəsi ilə görüşdüyünə görə təşəkkür edib və Azərbaycan Müdafiə nazirinin İsrailə ilk rəsmi səfərinin tarixi əhəmiyyətini qeyd edib. İsrailli ekspert deyib: "Sizin bu səfəriniz bir daha nümayiş etdirir ki, iki dövlət arasında siyasi-diplomatik dialoq, bir sıra istiqamətlər üzrə əməkdaşlıq ən yüksək etimad səviyyəsindədir. İsrail dövləti 25 il bundan əvvəl Cənubi Qafqazda strateji seçim edib. Bu seçim Azərbaycana düşdü və bütün göstəricilər üzrə birmənalı olaraq düzgün seçimdir. Biz, əslən Azərbaycandan olan, hazırda İsraildə yaşayanlar ölkələrimizin strateji tərəfdaşlığı faktına görə qürur duyuruq. Heç kəs üçün gizli deyil ki, həm Azərbaycan, həm də İsrail mürəkkəb geosiyasi regionda yerləşir və bu iki dövlət arasında əməkdaşlıq qarşılıqlı faydalı olmaqla onun böyük gələcəyi var. İsrail dövləti Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini yalnız beynəlxalq hüquq normaları və dövlətlərin ərazi bütövlüyü prinsipi çərçivəsində tənzimləməyə çağırır. Ermənistan Azərbaycanın işğal olunmuş torpaqlarını azad etməlidir. Bu, birmənalı şəkildə belədir və burada presedentlər yoxdur. Heç bir ölkə onun işğal olunmasına dözməyəcək və Azərbaycan da istisna deyil. Mənim fikrimcə, bu mürəkkəb geosiyasi şəraitdə Azərbaycanın ədalətli mövqeyinin Yaxın Şərqdə İsrail Dövləti kimi mühüm strateji tərəfdaş və güclü geosiyasi aktor tərəfindən dəstəklənməsi olduqca vacib və zəruridir. İsrail həmişə və hər yerdə Azərbaycanın yanında duracaq".

AZƏRBAYCAN ORDUSU

*21 Sentyabr Beynəlxalq Sülh Günüdür*

# Sülhün qorunması da Azərbaycanın dövlət siyasətində ümdə məsələlərdəndir

*Sülh bəşəri rəmzə çevrilərək insanların arzuladığı bütün müsbət keyfiyyətləri özündə birləşdirir. Ona görə də dünya ölkələrinin yekdil qərarı ilə BMT 1981-ci ildə sentyabrın 21-nin Beynəlxalq Sülh Günü kimi qeyd olunması barədə qərar qəbul edib. Bu günün əhəmiyyəti zaman keçdikcə, münaqişə ocaqları alovlandıqca üzə çıxmağa başladı.*



İnsan hüquqları, sülh və dözümlülük mədəniyyətinin təbliği, əhalinin hüquqi cəhətdən maarifləndirilməsi, onların hüquqi düşüncə və mədəniyyətinin günün tələbləri səviyyəsində inkişaf etdirilməsi demokratik-hüquqi dövlətin və vətəndaş cəmiyyətinin qurulması prosesinə təkan verən ən mühüm amillərdəndir.

21 sentyabr - sülh gününün qeyd olunması xalqlar arasında münasibətlərin sağlamlaşmasına, köklü zorakılığa qarşı mübarizənin gücləndirilməsinə nail olmaq üçün bir fürsətdir. Yaşından, irqindən, milliyyətindən, dinindən və cinsindən asılı olmayaraq, sülh və əmin-amanlıq hər kəsin istəyidir.

Azərbaycanın Ombudsman Aparatı tərəfindən hər il ənənəvi olaraq elan olunan "Sülh aylığı" xalqımızın sülh siyasətinə öz töhfəsini verməklə, ölkəmizdə sülh mədəniyyətini formalaşdırır. "Sülh aylığı" əhalinin müxtəlif qrupları arasında sülh və dözümlülük mədəniyyətinin, hüquqi düşüncəsinin inkişaf etdirilməsi məqsədini daşımaqla nəcib dəyərlərin, insan hüquqlarına hörmət ruhunun təbliğinə xidmət edir.

Sülh Azərbaycanda dövlət siyasətinin tərkib hissəsidir və bu siyasətin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ardıcıl surətdə davam etdirilir, bu siyasət Azərbaycanın beynəlxalq aləmdə imicini artırır. Qeyd olunmalıdır ki, dövlətimizin rəhbərliyi, üzləşdiyimiz məlum münaqişənin beynəlxalq hüququn prinsipləri çərçivəsində həllinə çalışır və beynəlxalq təşkilatları bu həqiqətlərə hüquqi qiymət verməyə dəvət edir.

Fərqli dinlərə və inanclara mənsub insanların əsrlərdən bəri qarşılıqlı anlaşma şəraitində yaşadığı Azərbaycanın ötən illər ərzində erməni hərbi birləşmələrinin təcavüzkar siyasəti ilə üzləşməsi, torpaqlarımızın 20 faizinin işğal edilməsi, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti, insan hüquqlarının kütləvi şəkildə və kobudcasına pozulmasıdır.

Ermənistan öz işğalçılıq siyasəti ilə yalnız Azərbaycanda deyil, həm də bütün regionda sülh və inkişaf üçün mühüm təhlükə mənbəyidir. Nə qədər ki, işğalçılıq siyasəti davam edir, onda bölgədə əmin-amanlığa təminat yoxdur.

Azərbaycan xalqının Beynəlxalq Sülh Gününü qeyd etməsi isə, təbii ki, Ermənistan Beynəlxalq təşkilatlarının vasitəçiliyi ilə davam edən sülh danışıqlarının səmərə verməməsi regionda təhlükəsizliyin təminatına əngəl yaratmaqdadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramına qoşulan respublikamız münaqişənin dinc vasitələrlə, beynəlxalq norma və prinsiplər əsasında, sülh yolu ilə həllinə tərəfdar olduğunu təsdiqləsə də, təcavüzkar Ermənistan tamamilə bunun əksinə hərəkət edir. İşğalçılıq siyasətini dünya ictimaiyyətinin gözü qarşısında davam etdirir.

Bu gün beynəlxalq müstəvidə Azərbaycanın haqlı mövqeyi dəstəklənir, xalqımıza qarşı törədilmiş faciələr, soyqırımı aktları dövlətlər tərəfindən tanınır. Bu isə ölkəmizin sülh təşəbbüslərinin, bir istiqamətdə apardığı ardıcıl siyasətin bariz ifadəsidir.

Bu gün Cənubi Qafqaz regionunda davamlı sülh və sabitliyi təmin etmək üçün beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinə tezliklə əməl edilməli, Ermənistan qoşunları Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalıdır. Əgər münaqişə həll edilməzsə, Azərbaycan Ordusu beynəlxalq hüquqla tanınan ərazi bütövlüyümüzü bərpa etməyə qadirdir.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Beynəlxalq humanitar hüquq mövzusunda kurs keçirilib

*Müdafiə Nazirliyi ilə Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyi arasında 2017-ci il üçün əməkdaşlıq fəaliyyəti çərçivəsində müxtəlif kateqoriyadan olan zabit heyəti üçün beynəlxalq humanitar hüquq mövzusunda təlim kursu keçirilib.*



Kursun məqsədi iştirakçıları müharibə gedən ölkələrdə mövafiq qanunvericilik və normalarla tanış etmək, eyni zamanda hərbi əməliyyatlar zamanı davranış, mülki əhalinin təhlükəsizliyi, yaralı və xəstələrin beynəlxalq hüquq normaları çərçivəsində qorunması, hərbi münaqişədən zərər çəkmiş dinc sakinlərə dəstək vermək və onların qarşılaşdığı mövcud problemlərin həlli barədə fikir mübadiləsinin aparılmasından ibarət olub.

Bağlanış mərasimində çıxış edənlər kursun əhəmiyyətini və mənimsənilən biliklərin praktiki tətbiqinin vacibliyini vurğulayıblar.

Kursu müvəffəqiyyətlə başa vuran zabitlərə sertifikatlar təqdim edildikdən sonra xatirə şəkli çəkilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Erməni hərbi ekspert: Ermənistan ordusu Azərbaycan Silahlı Qüvvələrindən çəkinir

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordumuza göstərdiyi diqqət və qayğı nəticəsində Silahlı Qüvvələrimiz sürətlə inkişaf edir. Bu gün ordu quruculuğu dövlətimizin başçısının diqqət mərkəzindədir. Ordunun döyüş hazırlığı səviyyəsinin artırılması, onun müasir hərbi texnika və vasitələrlə gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Bu gün Azərbaycanın güclü və sarsılmaz ordusu var. Ötən ilin aprelində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunun təxribatının qarşısını alarkən düşmənə sarsıdıcı zərbələr endirdi. Bu, ordumuzun gücünü bir daha nümayiş etdirdi. Azərbaycan Silahlı Qüvvələrinin vurduğu sarsıdıcı zərbədən düşmən hələ də özünə gəlməyib.

Azərbaycan Ordusunun gücünü bilən işğalçı Ermənistan ordusu daim qorxu içindədir. Bunu düşmən ölkənin hərbçiləri, hərbi ekspertləri də çıxışlarında dəfələrlə etiraf ediblər. Onlar bildiriblər ki, Azərbaycan Silahlı Qüvvələri hərbi potensialına görə Ermənistan ordusundan qat-qat güclüdür.

Buna misal olaraq, Ermənistanın xəbər saytlarında dərc edilən Artyom Balasanov tərəfindən yazılmış "Azərbaycan növbəti müharibədə "üç cəbhə" strategiyasından istifadə edəcək" adlı məqaləni göstərmək olar.

Məqalədə Azərbaycanın gözlənilən hücum istiqamətlərindən bəhs edilir. Yazıda göstərilmiş məqamlar onu sübut edir ki, Ermənistan tərəfi Azərbaycanın təsir vasitələrindən, hərbi potensialından, ordusunun döyüş imkanlarından qorxur və ehtiyatlanır. Bu amil də düşmən tərəfdə vahimə və xof yaradır.

Bununla da onlar Azərbaycan Silahlı Qüvvələrindən çəkindiklərini, qorxduqlarını boyunlarına alır, beləliklə də erməni əhalisini psixoloji cəhətdən məğlubiyyətə hazırlayırlar. Yəni, mövcud kriminal rejim gələcəkdə Ermənistanın təxribatı nəticəsində hərbi əməliyyatlar təkrar olunarsa, çoxlu itki verəcəklərinə və ərazi itirəcəklərinə dair əhalidə fikir formalaşdırmaqla məsələyə loyal yanaşılmasına, bunun normal hal kimi qəbul edilməsinə nail olmaq istəyir. Bununla onlar "Baxın, biz demişdik, Azərbaycanın gücü, hərbi texnikası, silah-sursatı, canlı qüvvəsi bizdən qat-qat artıqdır. Erməni xalqı bu məğlubiyyəti normal qarşılamalı və daha sıx birləşməlidir" deməklə ictimaiyyəti indidən gözlənilən ssenariyə qarşı hazırlamağa, özlərini haqlı çıxarmağa çalışırlar.

Bu istiqamətdə təbliğat aparmaqla, Azərbaycanın münaqişənin həlli istiqamətində atacağı addımlarla bağlı ekspert açıqlamaları tirajlamaqla, kriminal-hərbi siyasi rejim gələcək məğlubiyyətlərinə və uğursuzluqlarına haqq qazandırmağa can atır.

**AZƏRTAC**

# "İşğalçı Ermənistan Azərbaycanın hərbi potensialının artmasından təşvişə düşür"

Ermənistanın Müdafiə naziri Viqen Sarkisyanın ermənilərin pilotsuz uçuş aparatlarının istehsalı ilə bağlı açıqlamasına cavab olaraq hərbi ekspert, ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov AZƏRTAC-a bildirib ki, Ermənistanın iqtisadi durumu və hərbi sənayesinin hazırkı acınacaqlı vəziyyəti bizə çox yaxşı bəllidir.

Düşmən ölkənin istifadəsində olan pilotsuz uçuş aparatlarının kustar üsulla hazırlandığı, başqa ölkələrdən ucuz qiymətə alındığı və onların aşağı keyfiyyətli olması da sirr deyil. O ki qaldı, Viqen Sarkisyanın bu kimi əsassız və absurd fikirlərinə, o, ilk dəfə deyil ki, belə çıxışlar edir və bununla da artıq heç kimi təəccübləndirmir. Bu cür çıxışları o, əsasən Azərbaycan tərəfi hər hansı bir ölkə ilə hərbi-texniki əməkdaşlıq istiqamətində uğurlu addım atdıqdan dərhal sonra səsləndirir. Bu isə Azərbaycanın hərbi potensialının artmasından işğalçı dövlətin narahat olaraq təşvişə düşməsi ilə əlaqədardır.

Tarix

# “Millət sizə minnətdardır”

***Qafqaz İslam Ordusunun Bakını daşnak-bolşevik birləşmələrindən azad etməsindən bir əsrə yaxın dövr keçir. Bildiyimiz kimi, xilaskar ordu Azərbaycan xalqına qarşı soyqırımlarının qarşısının alınmasında və Azərbaycan Xalq Cümhuriyyətinin tarixində mühüm rol oynayıb.***

Bakı alındıqdan sonra Osmanlı Türkiyəsinin hərbi naziri Ənvər paşa Şərq Orduları qrupu komandanı Xəlil paşaya göndərdiyi şəxsi təbrik teleqramında yazırdı: "Bakı uğuru münasibətilə gözlərindən öpərək təbrik edirəm. Bakını azad edən birliklər bir az dincəldikdən sonra Azərbaycanda, hələlik, bir diviziya saxlanaraq, qalanını 9-cu Orduya geri almaq fikrindəyəm. Şimali Qafqazda sürətlə Dərbənd, Temirxan - Şura, Mahaçqala və digər ərazilərdə yerləşən qüvvələrə əsas olmaq şərti ilə dolğun heyətli yaxşı bir alay, qüvvətli topçu, hətta iki haubitsa topu da verərək və çoxsaylı pulemyotlarla da təchiz edərək, mürəkkəb bir dəstə halında şimala sövq etməsini Nuru paşaya yazdım...".

Bakı Azərbaycan Xalq Cümhuriyyətinin nəzarətində idi. Burada qayda-qanun yaratmaq üçün bütün vasitələrdən istifadə olunurdu. Hökumət Gəncədən Bakıya köçürülmüşdü. Baş nazir Fətəli xan Xoyski Azərbaycan Xalq Cümhuriyyətinin Bakıya köçürülməsindən dərhal sonra 20 sentyabr 1918-ci ildə əhaliyə müraciət edərək bildirirdi: "Artıq Bakıda yerləşən Azərbaycan hökuməti bununla şəhər və ətrafında yaşayan bütün əhaliyə, din və milliyyət fərqi qoyulmadan əmr edir: Azərbaycan hökumətinin tabeliyi altında yaşayan heç bir millətə fərq qoyulmadan caniləri, qarətçiləri, qatilləri və asayişi pozanları edam cəzası da daxil olmaqla, böyük cəzalar gözləyir. Bütün xalq bunu bilməlidir ki, türk millətinin qəhrəman və fateh əsgərlərinə əmr verilmişdir ki, cinayətlə, qarət və soyğunçuluqla məşğul olanları harada görsələr, güllələsinlər. Azərbaycan hökumətinin paytaxtında günahsız insanların haqq və hüquqlarına təcavüz edilməsi onun şan və şərəfinə yaraşmaz".

## Naxçıvandan Qarabağa

Şərq Orduları Qrupu komandanlığı 7 iyul 1918-ci ildə İstanbula göndərdiyi raportda 4-cü korpusun Təbrizi ələ keçirdiyi, ardınca Urmiya və Culfa-Naxçıvan bölgəsindəki ermənilərə qarşı daxili xətt manevri tətbiq ediləcəyi bildirilirdi. Həmişə olduğu kimi, o dövrdə də həm Cənubi, həm də Şimali Azərbaycanın bir problemi vardı. Türk ordusundan qaçaraq ermənilərin hərbi lideri rolunda çıxış edən Andranik qarşısına çıxan türkləri amansızcasına qətlə yetirirdi. Şərqi Anadoluda, Cənubi və Şimali Azərbaycanda qətliamların arası kəsilmirdi. Belə bir vaxtda Cənubi Azərbaycandakı Xoy şəhəri ətrafında qərar tutan Andranik 6 minlik qoşunla türklərin 12-ci piyada diviziyasına hücuma keçdi. Lakin ağır bir məğlubiyyətlə geri çəkilərək 22 iyun 1918-ci ildə Culfa və Naxçıvanda qəsəbə və kəndləri qarət etdi, əhalini qətlə yetirdi. Vəziyyəti belə görən türk





hərbi hissələri 20 iyul 1918-ci ildə Naxçıvana xilaskar ordunu yeritdi. Andranikin qüvvələri bu dəfə Qarabağa doğru qaçmağa başladı.

Qarabağda vəziyyət daha mürəkkəb idi. Əvvəlcə Qarabağdakı azərbaycanlılar və ermənilər ortaq bir komitə yaradaraq hakimiyyəti əllərinə alsalar da, tezliklə erməni xisləti özünü göstərdi. Onlardan ibarət Milli Komitə Şuşada qurultay çağıraraq bu qurumun ləğv edildiyini, 7 nəfərlik bir icra heyətinin seçildiyini və Qarabağ hökumətinin qurulduğunu elan etdi. Onlar təzyiq və hədə-qorxu ilə türklərin bu erməni hökumətini tanımasını təmin etməyə çalışsalar da, Qarabağ azərbaycanlıları bunu qəbul etmədilər. Şuşanın yerli əhalisi silahlanaraq ermənilərə qarşı əks tədbirlər görməyə başladı.

Elə bu vaxt Naxçıvandan qaçmaq məcburiyyətində qalan Andranik başda olmaqla, erməni-daşnak birləşmələri Qarabağa doğru irəliləyirdi. Andranikin yeganə məqsədi Qarabağı azərbaycanlılardan tamamilə təmizləmək idi.

Hadisələri diqqətlə izləyən Nuru paşa Bakı azad edildikdən sonra dərhal Qarabağ bölgəsində əməliyyatlara başladı. Bu məqsədlə Bakı Qarnizon komandanı polkovnik Cəmil Cahid bəy yeni yaradılan 1-ci Azərbaycan diviziyasına komandir təyin olundu. Bu diviziyanın əsasını 106-cı piyada alayı ilə 9-cu Qafqaz alayı təşkil edirdi. Azərbaycanlılardan ibarət 1700 nəfərlik 1-ci və 2-ci Azərbaycan alayları və 280 nəfərlik Azərbaycan süvari alayı da yeni diviziyanın sərəncamında idi. Ağdama gələn Cəmil Cahid bəyin qarşısında Şuşa və Gorusun azad olunması, Dağlıq Qarabağda asayişin təmin olunması vəzifəsi dayanırdı. Beləliklə, Azərbaycanda Osmanlı torpaqları arasında ortaq bir sərhəd olması planı da reallaşacaqdı.

Türk hərbi qüvvələri 7 oktyabrda əməliyyatlara başladı. Əsgəranı ələ keçirən qoşunlarımız sürətlə Şuşaya yaxınlaşdı. Türk ordusu ilə qarşılaşmaya cürət etməyən Andranik Şuşanın mühasirəsini buraxaraq cənuba doğru çəkilməyə başladı. Cəmil Cahid bəy Qarabağın tanınmış bəylərindən olan Sultan bəyin komandanlığı altında böyük bir mühafizə dəstəsini Andranikin qüvvələrinin ardınca göndərdi. Həmin dəstə Andranikin qüvvələrinə qarşı Qaladərə tərəfdən hücuma keçdi və onu darmadağın edərək Gorusa tərəf qovdu. Qaladakılar xilaskar türk ordusunu hərarətlə qarşıladılar. Şuşa şəhərinin əhəmiyyətli qovşaq və məhəllələrinə türk əsgərləri yerləşdirilərək asayiş təmin edildi.

Bakıya daxil olan türk ordusunun komandanları Nuru paşa, Xəlil paşa, Mürsəl paşa və başqaları mesenat Hacı Zeynalabdin Tağıyevin dəvətini qəbul edərək onun evində qalırlar. Zeynalabdin Tağıyev şəxsən vəd etdiyi kimi öz evini türk qoşunları komandanlığının istifadəsinə verir. Bu hörmət və ehtiram böyük qardaşlığın və dostluğun bariz nümunəsi idi. Azərbaycan Xalq Cümhuriyyəti dövrünün ən böyük qələbəsi Bakının erməni bolşevik-daşnak qüvvələrindən azad edilməsidir. Bu qələbənin böyüklüyünü və əhəmiyyətini isə Azərbaycan hökumətinin başçısı Fətəli xan Xoyski çox gözəl ifadə etmişdi: "Cəsur türk əsgərlərinin Azərbaycanın başkəndi olan Bakının düşməndən təmizlənməsi münasibətilə millətimin adından dünyanın ən cəsur və soylu əsgəri olan türkün oğullarına minnətdar olduğumuzu ərz etməklə iftixar edirəm. Millət sizə minnətdardır".

## Xilaskar orduya xalqın ehtiramı

Sovet dövründə müəyyən qadağaya və təzyiqlərə baxmayaraq xalqımız türk əsgərlərinin məzarlarını qoruyub saxlaya bildi, ətrafını abadlaşdırıb onları ziyarətgaha çevirdi.

Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra isə Qafqaz İslam Ordusu haqqında çoxlu sayda əsərlər yazıldı və dissertasiya işləri müdafiə edildi. Nəhayət, ulu öndər Heydər Əliyevin təşəbbüsü sayəsində bu qardaşlıq əbədiləşdirildi. 1918-ci ilin martında soyqırımı qurbanlarının, 1990-cı il yanvarın 20-si Ermənistanın təcavüzünə qarşı ölkəmizin ərazi bütövlüyü uğrunda aparılan müharibədə canından keçən şəhidlərin dəfn edildiyi və hər bir azərbaycanlı üçün müqəddəs olan Şəhidlər xiyabanında Qafqaz İslam Ordusuna möhtəşəm abidə ucaldıldı. Bu, insanların təkcə ziyarət edərək əklil qoyduqları bir abidə deyil, qanı bir-birinə qarışmış iki millətin sarsılmaz qardaşlığının rəmzidir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## ABŞ-da hərbi hissədə partlayış baş verib: yaralananlar var



ABŞ-ın Kaliforniya bölgəsində əsgərlərin olduğu hərbi hissədə partlayış baş verib.

Partlayış nəticəsində 15 əsgər yaralanıb. Yaralanan əsgərlər vertolyotla hərbi hospitala aparılıb.

Partlayışın səbəbləri hələ məlum deyil. Hadisə ilə bağlı araşdırmalar davam etdirilir.

## Misir hərbçiləri Sinayda terror aktının qarşısını alıblar



Misir ordusunun hərbçiləri Sinay yarımadasının şimalındakı nəzarət-buraxılış məntəqələrindən birində terror aktının qarşısını alıblar. Bu barədə məlumat Misir Silahlı Qüvvələri tərəfindən yayılıb.

Məlumata görə, çərşənbə günü səhər tezdən terrorçu-kamikadze pis hava şəraitindən istifadə edərək hərbi nəzarət-buraxılış məntəqəsinə soxulmağa cəhd göstərib. Lakin hərbçilər terror aktının qarşısını ala biliblər. Beş terrorçu öldürülüb, ikisi yaralı olaraq ələ keçirilib, qalanları qaçıb. Əməliyyatın gedişində, həmçinin iki hərbçinin həlak olduğu bildirilir.

Xatırladaq ki, sentyabrın 11-də Sinay yarımadasının şimalında terror aktı nəticəsində 18 polis işçisi həyatını itirmişdi. Terrorçular nəzarət-buraxılış məntəqəsi rayonunda partlayış törətmiş və polislərə avtomat silahlardan atəş açmışdılar.

## Şimali Koreya növbəti dəfə raket buraxıb



Şimali Koreya paytaxt Pxenyan yaxınlığından şərq istiqamətində raket buraxıb.

Bu barədə Cənubi Koreyanın Yonhap agentliyi hərbi mənbələrə istinadla xəbər yayıb. Bildirilir ki, hazırda Cənubi Koreya və ABŞ hərbçiləri Şimali Koreyanın buraxdığı raket ilə əlaqədar araşdırma aparırlar. Cənubi Koreya prezidenti Mun Ce-in məsələ ilə əlaqədar Təhlükəsizlik Şurasının təcili iclasını çağırıb.

Yaponiyanın NHK televiziya kanalı raketin ölkənin şimalı istiqamətində buraxıldığını bildirib. Qeyd edək ki, ötən ay Şimali Koreya eyni istiqamətdə "Hwasong-12" orta mənzilli ballistik raket buraxmışdı.

## İraqda iki terror aktı nəticəsində ölənlərin sayı 74 nəfərə çatıb



İraqın cənubunda yaraqlıların iki hücumu nəticəsində azı 74 nəfər ölüb, 80-dən çox insan yaralanıb.

İlk terror aktı Di-Kar vilayətinin paytaxtı Nasriya şəhərinin yaxınlığında törədilib. Silahlı şəxslər yol kənarındakı kafeyə soxularaq müştərilərə atəş açıblar. Bundan bir qədər sonra yaxınlıqdakı nəzarət-buraxılış məntəqəsində minalanmış avtomobil partladılıb. Yerli hakimiyyət orqanları həlak olanların sayının arta biləcəyi barədə xəbərdarlıq edirlər. Belə ki, yaralıların bir çoxu ağır vəziyyətdədir. Hər iki hücumun məsuliyyətinin İŞİD terror qruplaşması üzərinə götürüb.

## “Harvi” qasırğası nəticəsində Texasda ölənlərin sayı 80-ni ötüb



Texas ştatının qubernatoru Qreq Ebbotun açıqlamasına görə, "Harvi" qasırğası nəticəsində ölənlərin sayı, çox güman ki, 80-ni ötüb. Bundan əvvəl 60 nəfərin öldüyü bildirilirdi.

Texas qubernatoru mətbuat konfransında 82 nəfərin ölməsi barədə məlumatın olduğunu söyləyib. Lakin qeyd edib ki, bu adamların hələ ki hamısının ölüm səbəbi müəyyənləşdirilməyib. Qreq Ebbotun sözlərinə görə "70-dən çox" adamın qasırğa nəticəsində öldüyünü əminliklə demək olar.

**AZƏRTAC-ın materialları əsasında**

# MOİK-in idmançıları Litvada güləş üzrə keçiriləcək hərbçilərin 32-ci dünya çempionatında iştirak edəcəklər

Azərbaycan idmanın inkişaf səviyyəsinə görə dünyada qabaqcıl ölkələrdən biridir. İdmançılarımız Olimpiya oyunlarından, Avropa və dünya çempionatlarından, beynəlxalq turnirlərdən qələbə ilə gəlir, doğma Vətənimiz "Avropa Oyunları", "IV İslam Həmrəyliyi Oyunları" kimi beynəlxalq səviyyəli idman yarışlarına ev sahibliyi edir ki, bunlar da Azərbaycana idman sahəsində kifayət qədər nüfuz qazandırıb. Dövlətimizin idmana göstərdiyi yüksək qayğı hərbçi idmançılarımızı da qələbəyə ruhlandırır. Hərbçilərin idman fəaliyyəti üçün Silahlı Qüvvələrin hərbi bölmələrində yüksək şərait yaradılıb. Hərbi qulluqçuların idmanla peşəkar səviyyədə məşğul olması üçün Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunda (MOİK) 16 idman növü üzrə bölmələr fəaliyyət göstərir. İdman klubunda peşəkar və təcrübəli məşqçilər tərəfindən hazırlanan hərbçi idmançılar müxtəlif beynəlxalq yarışlarda ölkəmizi layiqincə təmsil edirlər. MOİK-in idmançıları Olimpiya, Dünya, Avropa və başqa mötəbər yarışlarda uğur qazanmaqla yanaşı, BAKI-2017 İslam Həmrəyliyi Oyunlarında 1-ci yeri tutan Azərbaycan yığmasının qələbəsində də pay sahib oldular. Onlar 2-si qızıl, 1-i gümüş və 1-i bürünc olmaqla komandamıza 4 medal qazandırdılar.

MOİK idmançıları Beynəlxalq Hərbi İdman Şurasının keçirdiyi yarışlarda dəfələrlə Azərbaycanı layiqincə təmsil ediblər. Mərkəzi Ordu İdman Klubunun idmançıları güləş növü üzrə



keçiriləcək 32-ci Dünya çempionatında iştirak etmək üçün bu günlərdə Litva Respublikasına yola düşəcəklər.

Mərkəzi Ordu İdman Klubunun rəisi, Beynəlxalq Hərbi İdman Şurasında (CİSM) Azərbaycan nümayəndə heyətinin rəhbəri polkovnik-leytenant Rəşad Quliyevin rəhbərlik etdiyi komandamızın tərkibində sərbəst güləş və yunan-Roma güləşi üzrə Dünya və Avropa çempionları, Olimpia oyunlarının, respublika birinciliklərinin qalibi olan idmançılar çıxış edəcəklər. Pəhləvanlarımızın yarışlara yüksək səviyyədə hazırlaşmalarında beynəlxalq dərəcəli idman ustaları mayor Nazim Əlicanov və mayor Taleh İsrafilovun da rolu az deyil. Beynəlxalq dərəcəli hakimlər Elman İsmayılov və Tural Əliyev Litvaya yola düşəcəklər.

Bu yarışda respublikamızı aşağıdakı hərbçi pəhləvanlarımız təmsil edəcək:

**Sərbəst güləş üzrə:**
**Məşqçi:**
Mayor Nazim Əlicanov Nəzir oğlu - beynəlxalq dərəcəli idman ustası, Əməkdar məşqçi, hərbçilərin Olimpiya oyunlarının qızıl medal mükafatçısı, hərbçilər arasında keçirilən XXX Dünya çempionatının qızıl medal mükafatçısı.
**İdmançılar:**
1. Xaşalov Əfqan Kamil oğlu (57 kq). 2017-ci ildə Dortmund şəhərində keçirilən gənclər arasında Dünya Çempionatının ikincisi, Finlandiyada keçirilin Dünya Birinciliyində 3-cü yerin qalibi;
2. Əliyev Qalib Rəhim oğlu (61 kq). Gənclər arasında Avropa çempionu, bir neçə Beynəlxalq turnirin mükafatçısı;
3. Leytenant Mustafayev Ağahüseyn Təbriz oğlu (65 kq). Hərbçilərarası Dünya çempionatının 2 qat qalibi, Hərbçilərin Olimpia çempionatında 3-cü yerin qalibi;
4. Əzimov Coşqun İnqilab oğlu (70 kq). Hərbçilərin Dünya və Olimpia çempionatlarının ikincisi;
5. Yusifli Rəşad Rafiq oğlu (74 kq). Gənclər arasında Azərbaycan çempionu;
6. Əliyev Əşrəf Paşa oğlu (86 kq). Dünya çempionatında və Hərbçilərarası dünya çempionatının bürünc mükafatçısı;
7. Nəsirova Türkan Taleh qızı (48 kq). Gənclərin Avropa çempionu, Dünya ikincisi.

**Yunan-Roma güləşi üzrə:**
**Məşqçi:**
Mayor İsrafilov Taleh İsrafil oğlu - beynəlxalq dərəcəli idman ustası, hərbçilər arasında keçirilən Avropa və Dünya birinciliklərinin 4 qat qalibi, hərbçilər arasında II Olimpiya oyunların gümüş mükafatçısı.
**İdmançılar:**
1. Əsgər Məmmədov Murad Səxavət (59 kq). Dünya və Avropa çempionu;
2. Əsgər Cəfərov Kərim Nazim oğlu (66 kq). Dünya çempionatının mükafatçısı, Avropa çempionu;
3. Əlimirzəyev Sənan Gülmirzə oğlu (71 kq). Avropa çempionu, Dünya çempionatının mükafatçısı;
4. Əliyev Həsən Həsən oğlu (75 kq). Dünya və Avropa çempionu;
5. Abbasov İslam Əsgər oğlu (85 kq). Gənclər və yeniyetmələr arasında keçirilən Dünya və Avropa çempionatlarının qalibi;
6. Nuriyev Orxan Elşad oğlu (98 kq). Avropa çempionu, IV İslam Həmrəyliyi Oyunlarının qalibi;
7. Feyziyev Cavid Cəlal oğlu (130 kq). Dünya ikincisi.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Taekvondo üzrə "Koreya səfiri kuboku" turniri keçiriləcək



Sentyabrın 16-da Sumqayıt Olimpiya İdman Kompleksində Azərbaycan Taekvondo Federasiyasının (ATF) və Koreya Respublikasının ölkəmizdəki səfirliyinin təşkilatçılığı və dəstəyi ilə taekvondo üzrə gənclər arasında üçüncü "Koreya səfiri kuboku" turnirinə start veriləcək.

Yarışın təşkilində məqsəd ölkədə taekvondonun təbliği, bölgələrdə idmanın bu növünün inkişafına təkan vermək, idmançıların yarış təcrübəsini və ustalığını artırmaqdır. Ümumilikdə, yeniyetmələrin sağlam həyat tərzi üçün idmanla məşğul olması da əsas məqsədlər sırasına daxildir.

## Atçılıq idmanı üzrə Bakı kuboku keçirilib



Bakı Cıdır Meydanında atçılıq idmanı üzrə Bakı kuboku keçirilib.

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsindən (BŞGİBİ) AZƏRTAC-a bildiriblər ki, yarışlar baş hakim İradə Heydərovanın rəhbərliyi ilə keçirilib.

BŞGİBİ-nin baş məsləhətçisi, paytaxtın atçılıq idmanı üzrə koordinator-kuratoru Salman Əbdülov, atçılıq idmanı məktəbinin direktoru Kərim Zamanov yarışda qalib gəlmiş idmançıları təbrik edib, onlara gələcək yarışlarda müvəffəqiyyətlər arzulayıblar.

Sonda yarışda ilk üç yeri tutmuş idmançılar müvafiq dərəcəli diplom, medallar və kubokla təltif olunub.

## Gənc şahmatçılarımız Avropa çempionatında 5 medal qazandılar



Rumıniyada yeniyetmələrin və gənclərin Avropa çempionatı Azərbaycanın gənc şahmatçılarının parlaq qələbəsilə başa çatıb.

Təmsilçilərimiz 2 qızıl, 2 gümüş və 1 bürünc medal qazanıblar. 12 yaşlı oğlanlar arasında Aydın Süleymanlı və 14 yaşlı şahmatçı qızların turnirində Gövhər Beydullayeva qızıl medal qazanıblar. 10 yaşlı qızlar arasında Səmra Qasımova, 10 yaşlı oğlanlar arasında Read Səmədov gümüş, 12 yaşlı qızlar arasında Ayan Allahverdiyeva bürünc medala layiq görülüblər.

Daha bir qələbə komanda hesabında qazanılıb. Avropanın 49 ölkəsi arasında yalnız Rusiyadan geri qalan komandamız 2-ci olub.

## Cari ildə "Qızıl ayaq" mükafatını almağa layiq olan 10 futbolçunun adı müəyyənləşib.



Mükafat yaşı 28-dən az olmayan və futbolun inkişafına töhfə vermiş oyunçuya təqdim ediləcək. Namizədlərin siyahısına Lionel Messi, Lui Suares (hər ikisi "Barcelona"), Kriştiano Ronaldo, Serxio Ramos ("Real Madrid"), Manuel Noyer, Aryen Robben ("Bavariya"), İker Kasilyas ("Porto"), Tyaqo Silva ("PSJ"), Yaya Ture ("Mançester Citi") və Andre Pirlo ("Nyu Yorks Siti") daxildir.

Qalib səsvermə yolu ilə müəyyənləşdiriləcək. Mükafatın təqdim edilmə mərasimi noyabrın 7-də Monakoda keçiriləcək.

**AZƏRTAC-ın materialları əsasında**

*Hərbi ənənələr, yeniliklər*

# "Barquzin" raket kompleksi



Rusiya İnformasiya Agentliyinin məlumatına görə, yaxın vaxtlarda "Barquzin" ballistik raketinin əsas sınağı keçiriləcək. "Barquzin"in dünyada heç bir analoqu yoxdur və onu ölkənin bütün ərazisində yerləşdirmək mümkün olacaq. Verilən məlumata görə, dəmiryolu kompleksi 22,5 metrlik qitələrarası ballistik raketlə təchiz olunacaq və 24 metr uzunluğunda vaqon-refrijerator kimi maskalanacaq. Hazırda onun ilk ballistik raket maketinin sınağı həyata keçirilir. Sınaqlar zamanı raketin buraxıcı qurğusu və cihazlanması yoxlanılıb. Müasir raket mobil "Yars" raket kompleksinin qatı yanacaqlı, qitələrarası RS-24 ballistik raketinin basazı əsasında hazırlanır. Nüvə qatarı üçün onun çəkisi 47 tondan artıq olmamalıdır. Yaxın vaxtlarda dəmiryolu raket kompleksinin uçuş-inşa sınaqlarının keçirilməsi və silahlanmaya qəbul edilməsi də gözlənilir. Müasir "Barquzin" raket kompleksi başqalarına nis-



bətən daha üstün olacaq. Raket şaxtaları kəşfiyyat vasitələri ilə aşkar edilə bilər. Bu nüvə qatarı bir neçə metrlik məsafədə yerləşən adi yük qatarından seçilməyəcək. Kompleks dəqiqliyinə, raketinin uçuş uzaqlığına və digər xüsusiyyətlərinə görə sələflərindən fərqlənəcək.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

Xudiyev İlham Cəmil oğluna 1997-ci verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Rəşid HÜSEYNOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 367 Nüsxə 4600 |